BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2013

**UOT 41.41 (070)**

# TİPOLOJİ XARAKTERİ FORMALAŞDIRAN FAKTORLAR SIRASINDA JANRIN YERİ

**K.Q.NİFTƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***kenul.nifteliyeva@gmail.com***

*Məqalədə mətbuatın tipoloji xarakteri, bu xarakteri formalaşdıran faktorlar barədə söhbət açılır. Qəzetin informasiya siyasəti, auditoriyası, konkret istiqaməti, tematikası və s. faktorlar sırasında janr sisteminin yeri təhlil olunur və təhlillər sırasında janrın yeri barədə daha geniş danışılır. Qəzetin janrlar sistemində informasiyanı xüsusi qiymətləndirən məqalədə «Şərq» qəzetinin xəbərə münasibəti və bu münasibətin intensivliyinin tipoloji xarakterə təsiri məsələləri məqalədə xüsusi vurğulanır.*

*Məqalədə müəllifin müddəalarını təsdiq edən illüstrativ materiallar, tipoloji modelin meydana çıxmasında informasiyanın yeri barədə elmi söhbət gedir.*

**Açar sözlər:** tipologiya, siyasət, informasiya janrları, informasiya, auditoriya

Azərbaycanın müasir qəzet sistemi çoxçeşidlidir. 1998-ci ilin avqustundan başlayaraq ölkədə senzuranın tam aradan qaldırılması, müstəqilliyin əldə edilməsi və mətbuatın rəqabətə yol açan özəl bölümünün meydana gəlməsi hər tip qəzetin yaranmasına yol açdı. Əvvəllər ideoloji, təbliğat istiqamətində fəaliyyət göstərən sovet qəzetləri müstəqil, azad mətbuat sistemində tab gətirmədi və qəzetlərimiz tezliklə partiya, dövlət monopoliyasından xilas oldu və biznes istiqaməti götürdü. Belə bir şəraitdə başlıca vəzifə yeni qəzet yaradarkən kimə ünvanlanmalıdır? Yəni yeni yaranan qəzetin mütləq yeni ünvanı, oxucu auditoriyası olmalıdır. Ona görə də, qəzet bolluğunda əsas vəzifə öz qəzetini kimə ünvanlamağı müəyyənləşdirmək çox vacibdir. Məsələn, vaxtilə, yəni hələ 1992-ci ildən «525-ci qəzet» müxalif yöndə çıxırdı. İki il keçdi və bu qəzet əvvəllər müxalif istiqamətli oxucunun maraqlarını nəzərdə tuturdusa, indi ümummilli istiqamət alıb, oxucu dairəsini genişləndirdi. Eləcə də, keçmiş «Kommunist» qəzeti «Xalq qəzeti»nə, «Sovet kəndi» - «Həyat»a, daha sonra «Bərəkət»ə çevrildi. Qəzetlər daha çox analitik yazılarla televiziyalar qarşısında rəqabətə çıxdılar. Və bu yerdə öz oxucu kütləsini yaratmağa çalışan ağıllı jurnalistlər harada boş qalan yer olduğu barədə düşünürdülər. Beləliklə, gənclər, qadınlar, uşaqlar, ziyalılar, hətta əlillər, idmançılar və başqaları üçün qəzet-

lər buraxmağa başladılar. Haqqında geniş söhbət açacağımız «Şərq» qəzeti 1996-cı il noyabrın 1-də belə şərtlər daxilində meydana gəldi və bütün fəaliyyətini xəbər təqdiminə yönəltdi. Həqiqətən də, xəbərə maraq göstərən oxucu auditoriyasını nəzərə almaqla «Şərq» qəzeti mətbuat aləmində tezliklə öz yerini tuta bildi. İndi «Şərq» qəzeti deyəndə ağlımıza gələn ilk fikir bu olur ki, «Şərq» xəbər qəzetidir. Yarandığı gündən obyektiv, operativ, qərəzsiz, tərəfsiz xəbər təqdimatını əsas götürən «Şərq» qəzetinin indi daha çox xəbərə maraq göstərən oxucu auditoriyası var. Onu da qeyd edək ki, xəbərə maraq təkcə hansısa zümrədə deyil, bütövlükdə cəmiyyətdə mövcuddur. Ona görə də, əlbəttə, bütün mətbuat orqanları xəbərə maraq göstərir. Xəbərsiz qəzet rəqabət bazarında məhvə məhkumdur. Lakin qəzetlərin həm də hər biri müəyyən janrlarla reklam bazarına daxil olur. Və belə bir fikir də mövcuddur ki, qəzetlər televiziya və radionun qarşısında daha çox analitik materiallarla rəqabətə tab gətirirlər. Lakin «Şərq» qəzetinin öz yolu var və bu yol birbaşa xəbəri əsas götürməkdir. «Şərq» qəzeti bu yolla rəqabət dünyasına qədəm qoydu və uğur qazandı.

Ən əsası odur ki, «Şərq» qəzetinin xəbər dünyası çox genişdir. Bu qəzet Azərbaycanın ucqar kəndinin müxtəlif məzmunlu bir hadisələrindən tutmuş BMT kürsüsünədək olaylara qədər hər şeydən xəbər verir. «Şərq»in informasiyalarının böyük əksəriyyəti həm də jurnalist peşəkarlığının məhsulu kimi də diqqəti cəlb edir.

Jurnalistikanın nəzəri fikri birmənalı şəkildə belə bir fikri qəbul edir ki, «jurnalistikanın əsası xəbər üstündə qurulub. Jurnalistlər yaxın çevrəmizdə, dünyada, siyasi arenada və s. də baş verən hadisələri araşdırır, məlumat toplayır və xəbərə çevirərək xalqa çatdırır. Bu baxımdan jurnalistika informasiyayayma peşəsidir» [1, 46]. Ukrayna jurnalisti A.Şevçenkonun dəqiq ifadəsi ilə desək, «jurnalistikanın ulduzlara yüksəldiyi an xəbər onun qaymağı, unu və gələcəyidir» [3, 12]. Daha bir jurnalistin fikrincə, «kütləvi informasiya vasitələri bizə dəxli olan, yaxud bizi maraqlandıran hadisə və faktların cəmiyyətə çatdırılması ilə məşğuldur» [12, 175]. Bütün bu fikirlər onu göstərir ki, xəbər mətbuatın aparıcı materialıdır. Lakin bu xəbər mütləq ictimai maraq kəsb etməlidir. «Cəmiyyətdə ayrı-ayrı qrupları təşkil edən insanların informasiyaya tələbini bilmək və hansı xəbərin məhz ictimai maraq kəsb etdiyini müəyyənləşdirmək qəzetin, jurnalistin əsas vəzifələri sırasındadır» [13, 48].

Beləliklə, «Şərq» qəzeti Azərbaycan media məkanında xəbərin bu funksiyalarını dərindən dərk etdiyi üçün bir informasiya qəzeti kimi formalaşmışdır. Bu qəzetin jurnalistika fəaliyyətində ən çox dəyər verdiyi xəbər janrıdır. Həm də qəzet xəbər janrının bütün növlərini nəzərə almaqla fəaliyyət göstərir, xəbəri dəyərləndirərkən onun yeniliyini, aktuallığını, əhəmiyyətini, ictimai maraq kəsb etməsini mütləq nəzərə alır.

Əvvəlcə «Şərq» qəzetinin xəbər qəzeti olduğunu, tipoloji cəhətdən bununla formalaşdığını izah edək. Bunun üçün qəzetin bir nömrəsinin, ən azı, sərlövhələrinə diqqət edək: «Sarkozi Ermənistandadır», «İmkansız tələbələrə

xoş xəbər», «Bələdiyyə seçkilərinə maraq yüksəkdir», «Ordumuzun iki əsgəri şəhid oldu», «Səfər Əbiyev NATO-nun tədbirinə qatılıb», «AŞPA 13 yaşlı qızın qətlə yetirilməsini pislədi», «Qazax rayonunun icra başçısı dəyişdirildi», «Azərbaycan və Ermənistan nazirləri görüşdülər», «Moskvada dava», «BTC ilə ixrac olunan neftin həcmi 170 milyon tona çatır», «Naxçıvanda hərbçi özünü asıb», «71 yaşlı kişini sel aparıb», «MSK-da işçi qrupu yaradılıb», «Təkər partlaması Ərdoğanı qorxutdu», «Ədəbiyyat üzrə Nobel mükafatçısı İsveçli şair oldu», «Təhsil Nazirliyində yeni təyinat», «Baş çavuş minaya düşüb», «Bakı metrosunda yeni insident», «Nənə və nəvə öldü», «Bakıda qəribə hadisə», «BMT rəqəm açıqladı», «Ukrayna viza rejimini sadələşdirməyə çağırır», «Şakira Obamanın müşaviri oldu», «Bakının mərkəzində yeni bulvar salınacaq», «Nişanlı qızı maşın vurdu», «Filmə ictimai baxış keçirilib», «Röya ikinci dəfə ana olacaq», «Vasif Məhərrəmli rayonlarda oxuyacaq», «Xəyyam ad gününə hazırlaşır», «Berluskonidən etiraz», «Ermənilər Bakıdan medalsız qayıdırlar» [4] və s. Ümumiyyətlə, qəzetin təkcə bu nömrəsində 90-dan çox materialdan 70-i xəbər janrındadır. Bu fakt «Şərq» qəzetini xəbər tipli qəzet kimi qiymətləndirməyə və onu bu istiqamətdən təhlil etməyə imkan verir.

*«Şərq» qəzetinin xəbəri dəyərləndirmə prinsipi*

Xəbəri dəyərləndirmək nə deməkdir? Bu o, deməkdir ki, jurnalist və ya bütövlükdə redaksiya, günün hadisələrinin hansının daha çox ictimai maraq doğurduğunu nəzərə almalıdır. Bunun üçün asan üsullardan biri kimi aşağıdakı üç mühüm suala xəbərin cavab verib-vermədiyi müəyyənləşdirilməsidir: Bu xəbər hadisədirmi? Bu xəbər aktualdırmı? Bu xəbərin bizim ictimaiyyətə aidiyyatı varmı? C.Məmmədlinin də qeyd etdiyi kimi, bu suallara müsbət cavab verən informasiya həm də prioritet xəbər kimi dəyərləndirilə bilər [2, 215].

Bir hadisənin xəbər olduğunu hər kəsdən əvvəl jurnalist bilməlidər. Jurnalist xəbəri dəyərləndirəndə fəaliyyət göstərdiyi qəzetin, onun oxucusunun maraq dairəsini, informasiya siyasətini nəzərə almalıdır. «Eyni zamanda, misal üçün, qəzetin ciddi və ya maqazin qəzeti olması da həlledici rol oynayır. Ciddi bir qəzetdə işləyən jurnalistin maqazin xəbərləri dalınca qaçması qəbul edilməz» [1, 65]. Tədqiq etdiyimiz «Şərq» qəzeti ciddi bir mətbuat orqanıdır və xəbərin oxucuya yaxınlıq, əhəmiyyətlilik, maraqlılıq kimi dəyər ünsürlərini nəzərə alır. Fikrimizi sübut etmək üçün qəzetin nömrəsində gedən xəbərlərə diqqət edək:

***Hadisə xəbər:*** *Yataqxana binası yandı*

*Xilasedicilər evdən azyaşlını çıxara bildilər*

Oktyabrın 5-də Bakıda yanğın hadisəsi baş verib.

Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, Bakı şəhəri, Sabunçu rayonunda ikimərtəbəli yataqxana binasında vətəndaşa məxsus ümumi sahəsi 20 kvadrat metr olan otağın yanar konstruksiyaları yanıb. Hadisə zamanı otaqda olan bir nəfər yanıq xəsarəti alıb. Yaralı xəstəxanaya aparılıb.

Əraziyə cəlb olunmuş yanğınsöndürənlər tərəfindən azyaşlı xilas edilərək aidiyyatı üzrə təhvil verilib, həmçinin, bitişik otaqlar yanğından mühafizə olu-

nub. Yanğın saat 11.40-da yanğınsöndürənlər tərəfindən söndürülüb.

*Xəzərdə zəlzələ oldu*

Dünən saat 12.20 radələrində Xəzər dənizində, Bakıdan 142 km şimal-şərqdə 3 bal gücündə zəlzələ baş verib.

Azərbaycan Milli Elmlər Akademiyasının Respublika Seysmoloji Xidmət Mərkəzinin rəsmi saytında yer alan məlumata görə, zəlzələ hiss olunmayıb.

Xatırladaq ki, oktyabrın 2-də də Xəzər dənizində 3 bal gücündə zəlzələ baş verib» [5].

Göründüyü kimi, hər iki xəbər hadisəni ifadə edir. Birincidə yanğın hadisəsi, ikincidə zəlzələ hadisəsi. Bizim üçün maraqlı cəhət orasındadır ki, qəzet hadisə haqqında yalnız məlumat verir, heç bir izah, şərh yoxdur. Ola bilsin, qəzet birinci hadisə haqqında geniş reportaj hazırlaya bilərdi. Lakin yanğın hadisəsinin miqyası kiçik olduğu üçün onu yalnız qısa xəbər formatında təqdim edib. Bizcə, qəzet bu formatla daha dəqiq və operativ olub.

Qəzet başqa bir hadisə – xəbərdə bir neçə gün əvvəl oxuculara məlum olan bir hadisənin yeni təfərrüatını təqdim edir və bu hadisənin bəzi məqamlarını açıqlamaqla, doğru olaraq, məsələyə aydınlıq gətirir:

*«Bakıda türmədən qaçmış məhbus tutuldu*

*28 yaşlı Faiq Fərəcov axşam saatlarında polis işçilərinin əlinə keçib».*

Bakı şəhərində yerləşən cəzaçəkmə müəssisəsindəki hadisənin təfərrüatları məlum oldu.

Bakı Şəhər Prokurorluğundan verilən məlumata görə, dekabrın 8-də saat 19.45 radələrində Ədliyyə Nazirliyi Pentensial Xidmətinin 2 saylı məntəqə tipli müəssisəsində cəza çəkən və müəssisənin daxili rejim qaydalarını pozduğuna görə cərimə otağında saxlanılan 23 yaşlı Dadaşov Fərid Cavid oğlu və 28 yaşlı Fərəcov Faiq Fuad oğlu kanalizasiya xəttinin nasaz olması barədə yalan məlumat verməklə, müəssisə rəisinin növbətçi köməkçisi Seymur Məhərrəmov və nəzarətçi Ramiz Əlifovdan onlara köməklik göstərməsini xahiş ediblər. Rəis köməkçisi və nəzarətçi otağa daxil olmaq istədikdə, Fərid Dadaşov və Faiq Fərəcov əvvəlcədən çarpayıdan sökdükləri dəmir parçalarla onların bədəninin müxtəlif nahiyələrindən zərbələr vuraraq müxtəlif dərəcəli xəsarətlər yetiriblər. Məhkum Faiq Fərəcov hadisə yerindən qaçıb. Daha sonra məhkum Fərid Dadaşov cərimə otağındakı odeyalın sonluğunu cırıb özünü pəncərənin dəmir barmaqlıqlarından asaraq intihar edib.

Qaçmağa nail olmuş məhbus artıq tutulub. Bu barədə Ədliyyə nazirinin müavini, nazirliyin Pentensial Xidmətinin rəisi Mədət Quliyev məlumat verib. Onun sözlərinə görə, 28 yaşlı Faiq Fərəcov axşam saatlarında polis işçilərinin əlinə keçib» [6].

Göründüyü kimi, bu hadisə-xəbərdə müəyyən təfərrüatların olması onu geniş xəbər formatında təqdim etməyə əsas vermişdir.

«Şərq» qəzeti hadisə xəbərdə hadisənin miqyasına görə onun formatını müəyyənləşdirir. Belə xəbərlər daha çox aktuallıq dəyəri kəsb edəndə meydana çıxır.

***Aktual xəbər***. Əslində aktual xəbər də hadisəlilikdən xali deyil. Lakin burada məsələ elə indi ictimai maraq kəsb edir ki, onu mütləq müəyyən şərhlə təqdim etmək lazım gəlir. Məsələn, Qarabağ ətrafında hidisələrə beynəlxalq reaksiyalar bu qəbildəndir. «Şərq» qəzeti bu problemi daim diqqətdə saxlayır və aktual xəbəri təfərrüatları ilə təqdim edir.

Məlumdur ki, Azərbaycan prezidenti İlham Əliyev regionların sosial inkişafını nəzərdə tutan bir sıra proqramlara, sənədlərə imza atıb. Prezident bu problemlərin necə həll olunduğunu şəxsən özü yoxlamaq və görmək üçün tez-tez rayonlarda olur. «Şərq» qəzeti prezidentin regionlara səfərini aktual xəbər kimi dəyərləndirir və bu barədə müntəzəm xəbərlər dərc edir. Belə xəbərlərdən birinin jurnalist təqdimatına diqqət edək: *«Prezident Şamaxıda olub. Ağsudan qayıdarkən dövlət başçısı Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax hissəsindəki işlərlə tanış olub»* [7].

Jurnalistikanın qəbul etdiyi xəbər dəyərləndirməsi sırasında xəbərdə yenilik də çox maraqlıdır. Çünki «Kütləvi informaiya texnologiyasının inkişafı xəbər dəyərindən biri olan yenilik prinsipini daha üstün bir dəyərə çevirmişdir. Artıq xəbərlərin yeniliyi dəqiqələr, hətta saniyələrlə ölçülür» [1, 67]. Belə xəbər həm də aktuallıq kəsb edəndə ikiqat dəyərə malik olur. «Şərq» qəzeti bu tip xəbərlərə öz səhifələrində xeyli yer verir.

Xəbərləri bir daha dəyərləndirilən, onun proqnozunu verən, bir növ xəbərdarlıq edən informasiyadır. Belə informasiyalara hava haqqında əvvəlcədən məlumat, zəlzələ ehtimalı, müharibə, təbii fəlakətlərin baş verəcəyi barədə proqnozlar daxildir. Məsələn, "Şərq" qəzetində dolların ucuzlaşması, bahalaşması ilə xəbərlər xüsusi ictimai maraq doğurur. Aşağıdakı şərhli xəbəri buna misal göstərmək olar: *"Dollar Azərbaycanda ucuzlaşacaq. Nazim Məmmədov hesab edir ki, bu prosesdən ölkəmizə ziyan gəlməyəcək»* [5].

Məlumdur ki, reportaj informasiya janrları içərisində ən çevik və canlı bir fakt kimi maraqlıdır. «Reportajda hadisənin əsas məqamları başdan-ayağa qədər açılır və xüsusi emosionallıqla təsvir edilir… Reportaj bir janr modeli kimi özünün dəqiq konturlarına malikdir» [11, 39]. "Şərq" qəzetinin aşağıdakı formada materialları reportajın tipik nümunələri hesab oluna bilər: *«Koroğlu» stansiyası istifadəyə verildi. Açılış mərasimində prezident İlham Əliyev iştirak etdi»* [8].

«Şərq» qəzetinin informasiyanı, daha dəqiq desək, xəbəri dəyərləndirmə metodunda özünəməxsus prinsipləri mövcuddur. Yuxarıda sadaladığımız və misallarla təhlil etdiyimiz həmin prinsiplər sırasında xəbərin prioritetliyini müəyyənləşdirmək əsas yerlərdən birini tutur. Diqqət etsək, digər qəzetlərdən fərqli olaraq "Şərq" qəzeti daha çox ictimai maraq kəsb edən xəbəri ayrıca şərhlə təqdim edir. Əlbəttə, jurnalistikada xəbəri şərhdən ayırmaq prinsipi mövcuddur. Professor C.Məmmədlinin fikrincə, "xəbər mütləq şərhdən ayrı verilməlidir... Xəbərə jurnalistin münasibəti qərəzlilik təsəvvürü yarada bilər" [2, 238].

Lakin təcrübədə bəzən elə xəbərlər olur ki, onları şərh etməmək mümkün

deyil. Əslində belə bir elmi fikir də var ki, "hər hansı bir prioritet məlumat hesab olunan xəbər analitik janrlarda təhlilə cəlb edilir" [10, 65]. "Şərq" qəzeti bu nəzəri fikri praktikada həyata keçirən və həm də bu üsluba daim diqqət yetirən məlumat orqanı kimi formalaşmışdır. Hətta çox vaxt belə xəbərlərin şərhi ilə xüsusi jurnalist imzasına da rast gəlirik. Məsələn, Şərq" qəzeti əvvəlcə "İranlı ayətullah Azərbaycanı hədələdi" sərlöhvəli bir xəbər verir. Həm də bu xəbərin priortetliyini nəzərə alaraq onun anonsunu birinci səhifəyə çıxarır:*"İranlı ayətullah Azərbaycanı hədələdi. Bu yolun davam etdirilməsi yaxşı nəticə verməyəcək*" [9].

Bu faktlar sübut edir ki, «Şərq» qəzeti nəinki informasiyanı, xəbəri təqdimetmə üsulu ilə, həm də bu xəbərin ictimai maraq prinsiplərindən doğan mahiyyəti ilə maraqlanan və hadisənin prioritetliyini öləzəyənə qədər izləyən bir mətbuat orqanıdır.

Hər bir mətbuat orqanının nüfuzu, cəmiyyətə təsir gücü həm də onun xəbər proqnozları, xəbərin dəqiqliyi ilə bağlıdır. «Şərq» qəzeti xəbərdə faktın dəqiqliyinə diqqətlə yanaşır, bununla da jurnalistikada dəqiqlik prinsipinə ciddi əməl etməyə çalışır.

Beləliklə, biz «Şərq» qəzetində xəbər və onun təqdimi formalarına nəzər saldıq. Araşdırmadan belə bir nəticəyə gəlmək olur ki, xəbər, həqiqətən də, medianın cəmiyyətə çatdırmaq istədiyi başlıca jurnalist materialıdır. Bütün media qurumları, xüsusilə qəzet aləmi xəbər janrını daha ciddi qəbul edir və onun təqdimat formalarını diqqətdə saxlayır. Əks halda elektron informasiya vasitələrinin bugünkü operativlik çağında qəzet rəqabətə tab gətirə bilməz. «Şərq» qəzeti yarandığı gündən bu amili nəzərə alaraq fəaliyyətə başlamışdır. Bizim araşdırmamız bir daha sübut edir ki, «Şərq» - ölkədə nəşr olunan qəzetlər sırasında öz xarakteri ilə xəbər yönümlü mətbuat orqanı statusunu qazanmışdır. Onun öz oxucu auditoriyası formalaşmış və bu auditoriya operativ informasiya almağın mənbəyi kimi hər səhər «Şərq»i gözləyir.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**

1. Qənbərli R. Jurnalistin əl kitabı. Bakı: Qismət, 2005, 144 s.
2. Məmmədli C. Müasir jurnalistika. Bakı: BDU, 2003, 435 s.
3. Məmmədli Z. A-dan Z-yə telexəbər. Bakı: «Yeni nəsil» Jurnalistlər Birliyi, 2009, 328 s.

**Qəzetlər**

4. «Şərq» qəzeti, 2011, 7 oktyabr
5. «Şərq» qəzeti, 2011, 6 oktyabr
6. «Şərq» qəzeti, 2011, 10 dekabr
7. «Şərq» qəzeti, 2011, 1 noyabr
8. «Şərq» qəzeti, 2011, 31 dekabr
9. «Şərq» qəzeti, 2012, 6 yanvar

**Rus dilində**

10. Ворошилов В. Журналистика. Санкт-Петербург: Наука, 2000, 447 с.
11. Лазутина Г.В., Распопова С.С. Жанры журналистского творчества. М.: Аспект-

пресс, 2011, 326 с.
12. Самарцев О.Р. Творческая деятельность журналиста. М.: Академический проект, 2007, 357 с.
13. Тертычный А.А. Методы профессиональной деятельности журналиста. М.: БК, 2011, 326 с.

## МЕСТО ЖАНРА СРЕДИ ФАКТОРОВ, ФОРМИРУЮЩИХ ТИПОЛОГИЧЕСКИЙ ХАРАКТЕР

**К.Г.НИФТАЛИЕВА**

### РЕЗЮМЕ

В статье речь идет о типологическом характере печати, факторах, формирующих этот характер. Автор анализирует информационную политику, аудиторию, контент-направление, тематику газет, в более широком масштабе определяет место системы жанров среди этих факторов.

В статье особо подчеркивается важность информационных жанров, выявляется отношение газеты «Шарг» к информации, обобщаются вопросы влияния этого отношения на типологический характер издания.

Теоретические положения автора сопровождаются соответствующими иллюстративными материалами, тема рассматривается в сугубо научном плане.

**Ключевые слова**: типология, политика, информационные жанры, информация, аудитория

## THE VALUE OF GENRE IN THE ROW OF FACTORS, THAT FORM THE TYPOLOGICAL CHARACTER

**K.G.NIFTALIEVA**

### SUMMARY

The article deals with the typological character of press, and the factors that form this character. In the row of the factors like the information policy of newspapers, their audience, content, themes, the place of the factor system are investigated, the place of genre is more widely analyzed. It is noted that, newspaper has special power to transmit information. For example, the attitude of ”East” newpaper to the news and the intensity of this attitude can influence to the typological character.

Besides, the article presents the illustrative materials, that prove the provisions of the author, the place of information in the existence of typological model.

**Key words**: typology, political, information styles, information, audience